

*Ələmdar Məmmədov*
*Təqaüddə olan*
*baş ədliyyə müşaviri*

# Frutik Qriqoryana gecikmiş açıq məktub

## ("Prokuror Roman kimi həyat" kitabının "Tariximiz və keçmişimiz" bölməsindən )

**(əvvəli ötən sayımızda)**

**10.** Xatirimdədir,canıyananlıqla deyirdin ki,Şah İsmayıl 500 illik Şirvanşahlar dövlətini tarix səhnəsindən silib.Bildirirəm ki,dövlətin tarixi tipləri var.Feodal istehsal üsuluna və ənənələrinə əsaslanan orta əsr dövlətlərində mərkəzdən qaçma və mərkəzə qaçma meyilləri güclü olmuşdur. Müəyyən tarixi şəraitdə bir nəfər çıxır, xırda feodal dövlətlərini özünə tabe etmək yolu ilə mərkəzləşmiş dövlət qurur. Həmin zamanda Azərbaycan ərazisində mərkəzləşmiş dövlət yaratmaq missiyası Şah İsmayıla nəsib oldu.Niyə Fransada,İngiltərədə,Almaniyada,Rusiyada,Osmanlıda mərkəzləşmiş dövlət qurub yaradanlar alqışlanır, qəhrəman elan edilir,sən isə taleyin bizə bəxş etdiyi ən şanlı-şöhrətli məqamımızı və şəxsiyyətimizi heçə endirməyə çalışırsan.Ona görə ki, e r m ə n i s ə n?!

**11.** Sah İsmayıl əsl türk oğlu türkdür.4 mln.kv.km. ərazisi,iki paytaxtı-yayda Təbriz, qışda Bağdad olan imperiyada dövlət dili türk dili olub.73 əmirlikdən 72-nin başçısı türk idi.Osmanlı sultanları yalnız fars dilində yazıb yaradırdılar.Sah İsmayılın yaradıcılığının əsasını türk dili təşkil edirdi.Osmanlıda saray dili yazışmalar ərəb, fars dillərində aparıldığı halda,Səfəvi dövlətində bütün daxili yazışmalar türk dilində aparılırdı. Gör Şah İsmayıl gələcək nəsillərə necə müraciət edir.

-"Ey Türk oğulları!Dilinizin bir sözünü dünyanın heç bir dilinə,bir ovuc torpağını dünyanın heç bir dövlətinə dəyişməyin.Onu qoruyun və gələcək nəsillərə göndərin!"

### *Nəriman Nərimanov*

Hörmətsiz və urvatsız, Frutik!

Nəriman Nərimanov haqqında da çox hədyanlar danışmısan.Məsələn, yadımdadır deyirdin ki,N.Nərimanov sizin millətinizə xəyanət edib,bolşeviklərlə də ikili oyun oynayıb ,əslində o bolşeviklərə də xəyanət edib,bir çox adamlarınızın güllələnməsinə icazə verib,Dağlıq Qarabağ və Naxçıvan məsələsində düzgün mövqe tutmayıb və.s.

Hörmətsiz Frutik, bu məsələdə də fikirləriniz yanlışdır.

**1.** Millətimin dağ boyda şəxsiyyətlərini heçə endirib,özünüzün qoz boyda səxslərinizi dağa döndərməyinizi başa düşürəm.Amma yel qayadan nə aparar? 1920-ci ilin sentyabr ayında Bakıda şərq xalqlarının birinci qurultayında iştirakçılar yekdilliklə N.Nərimanovu sədr seçmişdilər.Qurultay "Əzilən və istismar olunan şərq xalqlarına" müraciət qəbul etmişdi.Həmin müraciət ölkələrə və təşkilatlara N.Nərimanovun imzası ilə göndərilirdi.Ona şərqin Lenini deyirdilər.

**2.** Bolşeviklərin hakimiyyətə gəlməsi dünyəvi prosesin tərkib hissəsi idi.Onun qarşısını almaq mümkün deyildi.

**3.** Həmin dövrdə ali qanunvericilik və icra hakimiyyətini özündə birləşdirən və tərkibi yalnız azərbaycanlılardan ibarət olan İnqilab Komitəsinin sədri N.Nərimanov olmasaydı da, hansısa bir azərbaycanlı olacağdı.Məsələn, Əliheydər Qarayev.

**4.** N.Nərimanov heç vaxt bolşevik hərəkatında iştirak etməyib.Onun yaratdığı social-demokrat təmayüllü "Hümmət"partiyası yalnız 1920-ci ilin mart ayında bolşeviklərlə birləşib.

**5.** Həmin dövrdə digər respublikaların İnqilab Komitə sədrləri, necə deyərlər, meydandan gəlmişdilər.N.Nərimanov isə həkim,yazıçı,siyasətçi olmaqla əsl ziyalı idi. Məhz bu fərqli xüsusiyyətlərinə görə o,tarixdə yeganə adam olub ki,Qafqazda üç respublikanı birləşdirməyə nail olmuşdu.Başqa sözlə, hər üç respublika -Azərbaycan,Ermənistan və Gürcüstan N.Nərimanovun liderliyini və böyüklüyünü qeyd-şərtsiz qəbul etmişdi. O,Zaqqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin sədri idi.30 dekabr 1922-ci ildə yaranmış SSRİ MİK-nin 4 həmsədrindən biri idi.

**6.** Leninin yazılarında tənqid və təhqir etmədiyi 3 nəfər olub.Q.Plexanov,Parvus ləqəbli Qelfand və N.Nərimanov.

**7.** Üzeyir bəyi,Hacı Zeynalabdin Tağıyevi və yüzlərlə dəyərli insanlarımızı bolşevik gülləsindən N.Nərimanov qurtarıb.1920-ci ilin iyun ayında Gəncədə böyük Azərbaycan ziyalısı Firidun bəy Köçərli əksinqilabı fəaliyyətdə təqsirli bilinərək, məhkəməsiz güllələnmişdi.Bundan xəbər tutan N.Nərimanov müstəntiqin qərarını təsdiq edən Xüsusi bölmənin rəisi Libermanı həbs etdirib,güllələtdirmişdi.(Təəsüf ki,F.Köçərlinin güllələnməsi barədə qərarı fövqəladə komissaar kimi Həmid Sultanov da imzalamışdı.)

**8.** Qazaxıstan və Orta Asiya respublikaları,həmçinin Rusiya Federasiysının müsəlman, türk xalqları yaşayan muxtar respublikalarının (Dağıstan, Başqırdıstan və.s.) heç birində keçən əsrin 80-ci illərinədək öz dillərində ali təhsil müəssisəsi olmayıb.(Pedoğoji institutu çıxmaq şərti ilə).Azərbaycanın 14 təhsil müəssisəsinin hamısı ana dilində olub.Bu yolu ADR başlayıb , Nərimanov və M.C.Bağırov inkişaf etdirib.

**9.**1917-ci ilin oktyabr ayında bolşeviklər sol eserlərlə koalisiya təşkil edib hökumət qurmuşdular.Bu müttəfiqlik 06 iyun 1918-ci ilə qədər davam etdi.Sol eserlərin lideri Spiridonovanın rəhbərliyi ilə baş tutmayan qiyamı bəhanə edərək, həmin partiyanın da fəaliyyəti qadağan edildi. Sizin daşnaksütün və Gürcülərin menşevik partiyası da sovet hakimiyyəti qurulan kimi bağlandı. bolşeviklər Azərbaycanda hakimiyyətə gələndən sonra Lakin mənim N.Nərimanovumun dəstəyi ilə Sol Müsavat partiyası 1923-cü ilə kimi fəaliyyət göstərdi.

**10.** 1921-ci ildə Naxçıvanın statusu ilə əlaqədar Rusiya Federasiyası ilə Türkiyə Cümhuriyyəti arasında Moskva və Qars müqavilələri bağlanmışdı.Hər iki müqavilənin hazırlanmasında ruslarla görüşə gedən Türk nümayəndə heyəti N.Nərimanovun yanında olmuş,onun tövsiyə və məsləhətlərini dinləmişdilər.

**11.** 04 iyul 1921-ci ildə N.Nərimanovun da daxil olduğu bolşeviklər partiyasının 7 nəfərdən ibarət Zaqafqasiya bürosu mərkəzin nümayəndəsi Stalinin iştirakı ilə Dağlıq Qarabağın statusu ilə əlaqədar məsələ müzakirə edirlər. 4 nəfər lehinə,3 nəfər əleyhinə olmaqla Dağlıq Qarabağın Ermənistan Respublikasına verilməsi barədə ilkin qərar qəbul edilir.Səhərisi günü büro həmin tərkibdə yığışıb məsələyə təzədən baxır.4 nəfər lehinə 3 nəfər əleyhinə olmaqla Dağlıq Qarabağın Azərbaycan Respublikasına verilməsi barədə yeni qərar qəbul edilir.Mövqeyini-səsini dəyişən kim olur?-Birinci müzakirədə ermənilərin xeyrinə xüsusi canfəşanlıq göstərmiş Orconikedze.Orconikedzeyə kim təsir edə bilərdi?-Stalin!Stalinə kim təsir edə bilərdi?-Lenin!Leninə kim təsir edə bilərdi?-Əlbətdə, N.Nərimanov!

Aşağıda həmiin protokolların arxivdən çıxarılmış surətini oxucuların müzakirəsinə təqdim olunur.

**Из протокола №11**

**вечернего заседания Пленума Кавбюрю ЦК РПК от 4 июля 1921 г.**

**Присутствовали: члены ЦК РПК: Сталин, члены Кавбюро: тт. Орджоникидзе, Махадзе, Нариманов, Мясников, Киров, Назаретян, Орахелишвили и Фигатнер. Секретарь Кавбюро комсомола Брейтман. Члены ЦК Грузии: Циннадзе, Мдивани и Сванидзе.**

**Слушали:**

**1. Карабахский вопрос.**

**При обсуждении этого вопроса выявились две точки зрения и были поставлены на голосование следующие вопросы:**

**а) Карабах оставить в пределах Азербайджана.**

**Постановили:**

**Голосуют за: Нариманов, Махарадзе, Назаретян.**

**Против: Орджоникидзе, Мясников, Киров, Фигатнер.**

**б) Нагорную часть Карабаха включить в состав Армении/ Голосуюут за: Орджоникидзаде, Мясников, Фигатнер, Киров.**

**г) плебисцит провести только в Нагорном Карабахе, т.е. среди армян.**

**Голосуют за: Орджоникидзе, Мясников, Фигатнер, Назаретян Постановлено: Нагорный Карабах включен в состав ССР Армении, плебисцит провести только в Нагорном Карабахе.**

**2. Заявление тов. Нариманова в виду той важности, которую имеет Карабахский вопрос для Азербайджана, считаю необходимым перевести его на окончательное решение ЦК РПК.**

**Ввиду того, что вопрос о Карабахе вызвал серьезное разногласие, Кавбюро ЦК РПК считает необходимым перенести его на окончательное решение ЦК РПК.**

**При голосовании по вопросу о Карабахе (тов. Орахелашвили отсутсвовал). п.п. Секретарь Кавбюро ЦК РПК Фигатнер.**

**Верно: Управдел**

**Верно: подпись**

**Из протокола №12**

**Заседания Пленума Кавбюро ЦК РПКот 5 июля 1921 г.**

**Присутствуют: Член: ЦИК РПК Сталин, члены Кавбюро: тт. Орджоникидзаде, Киро, Назаретян, Орахелишвили, Фигатнер, Нариманов, Мясников.**

**Наркоминдел АССР Гусейнов.**

**Слушали:**

**1. Тт. Орджоникидзаде и Назаретян возбуждают вопрос о пересмотре постановления предыдущего Пленума о Каркбахе.**

**Постановили:**

**Исходя из необходимости националного мира между мусульманами и армянами и экономической связи верхнего и нижнего Карабаха, его постоянной связи с Азербайджаном Нагорный Карабах оставить в пределах АССР, представив ему широкую областную автономию с административным центром в г. Шуше, входящей в состав автономной области.**

**Голосуют: 4; воздержалось 3**

**б) поручит ЦК Азербайджана, определить границы автономной области и представить на утверждение Кавбюро ЦК РПК.**

**в) поручить Президиуму Кавбюро ЦК переговорить с ЦК Армении и ЦК Азербайджана о кандидате на Чрезвычкома Нагорного Карабаха.**

**г) объем автономии Нагорного Карабаха определить ЦК Азербайджана и представить на утверждение Кавбюро ЦК.**

**Секретарь Кавбюро ЦК РПК Фигатнер С подлинным верно: Управдел.**

**12.** N.Nərimanovun qurtuluş savaşına da böyük töhfələri olub.

Atatürk ona göndırilmiş 500 kq qızıl və 10 milyon qızıl rublun müqabilində təşəkkür məktubu yazarkən N.Nərimanov belə cavab verir:-"Paşam biz türklərdə qardaş qardaşa borc verməz.Qardaş qardaşın əlindən tutar."

**13.** N.Nərimanov öz millətini çox sevirdi.Təsadüfi deyil ki,1937-1938ci illərdə millətçiliyə görə repressiyaya məruz qalanlara Nərimanovçu,Nərimanovçuluq (Narimanovşina) damğası vurulurdu.

**14.** Tarix boyu böyük imperiyalar dağıldıqdan sonra yerində yaranmış dövlətlər imperiya təxəyyülündən əl çəkə bilməyiblər.1902-ci ildə yaranmış bolşeviklər partiyasının hakimiyyətə gələrkən 200 minə yaxın üzvü olub.Onların içərisində müsəlman-türk millətindən çox az sayda adam var idi.Bolşevik hərəkatına sonradan qoşulduğu üçün partiyanın ali rəhbərliyində N. Nərimanov demək olar ki,tək idi.Arxasız idi.Belə vəziyyətdə bir siyasi xadimdən bundan artıq nə tələb etmək olardı?

### *Səməd Vurğun*

Səməd Vurğun haqqında deyirdin ki,işi-gücü Stalini, partiyanı vəsf etmək olub.Bu fikrin də kökündən yalnışdır.Doğrudur Səməd Vurğun da digər sənətkarlarımız kimi zamanın qadağaedici və cəzaverici siyasəti şəraitində, "formaca milli, məzmunca sosialist"qaydalar çərçivəsində partiyaya, rəhbərə şeirlər həsr edib.Amma yaltaqlıq naminə deyil, inandığı üçün!

**Bəşərin vicdanı, eşqi, ürəyi**
**Fikri,düşüncəsi,zehni,diləyi**
**Bütün yer üzünün xoş gələcəyi**
**Hər zövqü, səfası, partiyamızdır.**

Məgər bu şeiri Səmədin öz sözləri ilə desək, "ilham pərisi gonaq gəlmədən" yazmaq olardımı?! Çox düşündüm.Əcəba, Səmədin nəyi və harası xoş gəlmirdi sənə, Frutik?

16 yaşında "Solğun çiçəklər"- lə ədəbiyyata gələn böyük dramaturqumuz Cəfər Cabbarlının istedadı heç də Səməddən az olmayıb.O pyeslərini adətən üç-dörd gün ərzində yazarmış. Doğrudur, C.Cabbarlı "rəhbərə salam göndətməyib",lakin yaradıcılığının böyük hissəsini sosializm quruluşunun üstünlüklərinə həsr edib.Amma heç Cəfərim haqqında bir dəfə də olsun mənfi fikir söyləmirdin,ay Frutik.

**(ardı gələn sayımızda)**